AZƏRBAYCAN 3 sentyabr 2024-cü il

# ADA Universiteti və Serbiya XİN-in Diplomatik Akademiyası Anlaşma Memorandumu imzalayıblar





**Sentyabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının xarici işlər naziri Marko Curiç ilə görüşüb.**







Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq münasibətlərinin siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji, nəqliyyat və kommunikasiyalar, humanitar və digər aspektləri, habelə regional, beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlər, siyasi dialoq və parlamentlərarası əlaqələrin dinamizminin mühüm rol oynadığını qeyd edib. Ali səviyyəli təmaslar çərçivəsində əsası qoyulmuş Azərbaycan-Serbiya Strateji Tərəfdaşlıq Şurasının yaradılmasının əhəmiyyəti vurğulanıb. Strateji tərəfdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində imkanların müzakirəsi baxımından siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi qeyd olunub.

Ölkələrimizin nümunəvi ikitərəfli münasibətlər dinamikasının regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəkdə, həmrəylikdə özünü büruzə verdiyi məmnunluqla vurğulanıb.

Xüsusilə energetika, investisiyalar və s. istiqamətlər üzrə sahəvi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinin intensivliyi təqdirəlayiq hesab olunub.

Humanitar, o cümlədən təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin inkişaf etdirilməsi, habelə ölkələrimiz arasında vizasız gediş-gəliş rejiminin tətbiqinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verdiyi diqqətə çatdırılıb. Azərbaycanın Şuşa və Serbiyanın Noviy Bazar şəhərlərinin qardaşlaşması təcrübəsinin davam etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində əməkdaşlıq üçün yeni imkanların yarandığı bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin həmkarını postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, bu fəaliyyətə hədə törədən mina təhdidi barədə ətraflı məlumatlandırıb. Serbiya şirkətləri və sərmayədarları Qarabağ və Şərqi Zəngəzur regionlarında aparılan bərpa və yenidənqurma fəaliyyətlərində aktiv iştirak etməyə dəvət olunublar.

Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinə toxunan nazir Ceyhun Bayramov xüsusilə delimitasiya prosesində əldə edilən irəliləyişlər daxil olmaqla, sülh gündəliyinin irəlilədilməsi istiqamətində inkişafların mövcud olduğunu, lakin buna baxmayaraq, Ermənistan konstitusiyası daxil olmaqla, bu ölkənin bir sıra qanunverici aktlarında ölkəmizə qarşı ərazi iddialarının davam etdirilməsinin, digər tərəfdən isə Ermənistanın sürətlə silahlanmasının sülh prosesinə maneə törətdiyini diqqətə çatdırıb.

Nazir Marko Curiç ölkəmizi ötən gün baş tutan parlament seçkilərinin şəffaf, azad və demokratik formada təşkili münasibətilə təbriklərini çatdırıb, seçki prosesinin nəticələrinin Azərbaycan parlamenti üçün uğurlu olacağına dair ümidvarlıq ifadə edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdən sonra ADA Universiteti və Serbiya Respublikasının Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası arasında Anlaşma Memorandumunun imzalanma mərasimi baş tutub.

Daha sonra nazirlər görüşün yekunlarına dair keçirilmiş mətbuat konfransında bəyanatla çıxış edib, media nümayəndələrinin suallarını cavablandırıblar.